# Kazus

**I.A.Sorokinanın işi**

***İşin halları:***

1. Ərizəçi Sorokina İrina Alekseyevna rus millətindən olan tənha qadındır, həyat yoldaşı ve oğlu 2001-ci ildə avtomobil qəzasında həlak olmuşlar, anası və bacısı da daxil olmaqla bütün yaxın qohumları Rusiya Federasiyasında yaşayırlar.

2. Ərizəçi Bakı şəhəri, A rayonu, B küçəsində yerləşən 11 saylı evin 13 saylı mənzilində yaşayırdı. O,bu mənzili alqı-satqı müqaviləsi əsasında əldə etmiş və onun mülkiyyətçisi idi.

3. Bakı Şəhər İcra Hakimiyyətinin Başçısı 24 sentyabr 2008-ci il tarixli "Yeni park kompleksinin salınması, ərazidə yerləşən yaşayış və qeyri-yaşayış sahələrinin köçürülməsi haqqında" 511 saylı sərəncamına əsasən yerli icra hakimiyyəti orqanları ərazidə yaşayan sakinləri vəziyyətindən, təmirindən, təyinatından, dəyərindən və başqa fərqli cəhətlərindən asılı olmayaraq, onların mülkiyyətində olan mənzilləri, evləri, obyektləri sahəsinin kvadrat metri 1.500 manat qiymətinə satmağa məcbur etmişlər. Həmin təklifə razı olmayan şəxsləri əmlakından imtinaya vadar etmək üçün sakinlərinyaşayışı üçün dözülməz şərait yaradılmış, buna baxmayaraq Ərizəçi mənzilində yaşamağı davam edirdi.

4. Ərizəçi öz hüquqlarının müdafiəsi üçün 2010-cu ilin mart ayında məhkəməyə "Vətəndaşın hüquqlarını pozan qərar və hərəkətlərə son qoyulması, mülkiyyət hüququndan istifadədə maneələrin aradan qaldırılmasına dair" iddia ərizəsi ilə müraciət etmiş, lakin rayon məhkəməsi işin baxılmasını ləngitdiyindən 2011-ci ilə qədər iş üzrə yekun məhkəmə qərarı (qətnamə) qəbul edilməmişdir.

5. Ərizəçinin dediyinə görə, 02 noyabr 2010-cu il tarixində icra hakimiyyəti orqanlarının əməkdaşlarının iştirakı və rəhbərliyi ilə Ərizəçinin yaşadığı bina polis əməkdaşları tərəfindən səhər tezdən mühasirəyə alınmışdır. Həmin şəxslər onun mənzilinin qapısını lom vasitəsi ilə sındıranda, Ərizəçi işinin məhkəmədə olmasını bildirməsinə baxmayaraq, buna heç bir əhəmiyyət verilməmiş, polis nəfərləri və digərləri mənzilin içərisinə daxil olaraq onun ev əşyalarını daşımağa başlamış, özünü isə həmin binanın digər on iki nəfər sakinləri ilə tutaraq polis bölməsinə gətirmişlər.

6. Polis bölməsindən Ərizəçi yalnız 22 saat keçdikdən sonra buraxılır. Qayıtdıqda, görür ki, onun mənzili tamamilə boşaldılaraq ev əşyaları naməlum yerə daşınmışdır. Soraqlaşandan sonra əşyaların daşındığı yerin harada olmasını öyrənərək oraya yollanır. Ambar kimi istifadə edilən yerə çatdıqda, Ərizəçi görür ki, əşyaları heç bir ehtiyat, təhlükəsizlik tədbirləri görülmədən, qalaq-qalaq həmin yerdəki otaqlardan birinə boşaldılmış, onların xeyli hissəsi sıradan çıxmışdır.

7. Əşyalarının tamlığını və bütövlüyünü yoxladıqdan sonra, Ərizəçiyə məlum olur ki, dəyəri 11 000 manatdan artıq olan əşyaları ya yoxa çıxmış, ya da sıradan çıxmışdır.

8. 02 noyabr 2010-cu il tarixindən evsiz-eşiksiz qalan Ərizəçi mənzil kirayələməli olur. Onun mülkiyyətçisi olduğu mənzilin yerləşdiyi bina isə 02 dekabr 2010-cu il tarixində tamamilə sökülür.

9. *Ərizəçinin tutulması ilə bağlı şikayəti:* 04 noyabr 2010-cu il tarixində Ərizəçi rayon məhkəməsinə qanunsuz tutulması ilə bağlı şikayət verir. Ərizəçi 02 noyabr 2010-cu il tarixində

yaşadığı binanın ətrafında, mənzilində, polis bölməsində baş verənləri ətraflı təsvir edərək, polis bölməsində 22 saat saxlanılmasının qanunsuz tutulma hesab edilməsini xahiş etmişdir. Şikayətdə göstərilmişdir:

*"2010-cu il noyabrın 02-də, təxminən saat 8-30-da mən pəncərədən gördüm ki, yaşadığım bina çoxsaylı polis əməkdaşları və mülki geyimli şəxslər tərəfindən mühasirəyə alınıb. 8-55-də qapımı döydülər; soruşanda ki, kimdir, cavab verdilər ki, mən bilirəm onlar kimlərdir, qapını açmalıyam. Mən qapının gözlüyündən baxanda gördüm ki, onun qarşısında tanımadığım adamlar var, buna görə də, qapını açmaqdan imtina etdim.Bundan sonra onlar qapını sındırmağa başladılar. Mənim etirazlarıma heç bir əhəmiyyət vermirdilər. Halbuki mən onlara iddiama dair mülki işin məhkəmənin icraatında olmasını söyləyirdim. Belə ki, hələ bu ilin may ayında mən Bakı Şəhər İcra Hakimiyyətinə, rayon İcra Hakimiyyətinə, rayon Polis İdarəsinə qarşı vətəndaşın hüquqlarını pozan qərar və hərəkətlərə son qoyulması, mülkiyyət hüququndan istifadədə maneələrin aradan qaldırılmasına dair iddia ərizəsi vermişəm və məhkəmə baxışı noyabrın 04-də, yəni bu gün, davam etməli idi.*

*Həmin adamlar bir neçə dəqiqədə qapını sındıraraq, mənim razılığım olmadan içəriyə daxil oldular. Onların icərisində 5-6 fəhlə, 4 polis formalı və 3 nəfər mülki geyimli şəxs var idi. Mən onlardan mənzili tərk etmələrini tələb etsəm də, buna fikir verilmədi. İçəri daxil olanlar dərhal mənim əşyalarımı götürüb aparmağa başladılar.Bir nəfər çox hündür boylu adam məndən rus dilində mənzili tərk etməyimi tələb etdi. Bildirdi ki, aşağıda Bakı şəhər icra hakimiyyətinin nümayəndəsi mənimlə danışacaq. Mən bundan imtina etdim. Onlar özbaşınalıqlarını davam etdirirdilər.Təxminən saat 09.30 radələrində mənə qarşı bu amansız, qeyri-insani rəftardan, illərlə yaşadığım və mülkiyyətimdə olan mənzildən əşyalarımın aparılması, özümün öz yaşayış sahəmdən qovulmağım nəticəsində səhhətim pozulduğundan 103 xidmətinə zəng edərək təcili yardım dəvət etdim. Bir qədər sonra təcili yardım stansiyasının maşını gəlməsinə baxmayaraq, onu evə buraxmadılar. Sonra halım daha da pisləşəndə, məni bir polis nəfəri qucağında aşağı düşürtdü və həyətdəki bir kresloda otuzdurdu. Lakin təcili tibbi yardımın çağrılmasına icazə verilmədi.*

*Təxminən saat 10.00-da məni polis bölməsinin maşınına, barmaqlıqlar arxasına əyləşdirdilər və saat 10.10 dəqiqədə rayon polis idarəsinin polis bölməsinə gətirdilər və bir otaqda əyləşdirdilər.Orada qonşularım - 70 yaşlı onkoloji xəstə Fərid Aslanov, Zülfiyə Abısova, Firəngiz Səfərova, Sevinc Qaziyeva, Əli Rzayev, Tofiq Abbasov, ağır diabet xəstəsi İsa, Rəşid və onun atası, daha bir kişi və 3 qadın da oturmuşdular. Bizə polis bölməsini tərk etmək qadağan edildi.Mənim ürəyim bulandı. Bir qədər keçdikdən sonra təcili yardım karetasi gələrək məni müayinə etdi. 4/1631 saylı arayış tərtib edildi, müəyyən olundu ki, qan təzyiqim qəfil yuxarı qalxmış, 190/120 olmuşdur. Mənə tibb yardımı göstərdikdən sonra, təcili yardım həkimi digər iki nəfərə də yardım göstərdi. İsanın halı pisləşdiyi üçün (o, xəstəliyinə görə vaxtında qidalanmalıdır və insulin qəbul etməlidir), saat 12-dən sonra biz onun ya qidalandırılması və ona insulin vurulmasını, ya da ki, buraxılmasını tələb etdik, çünki onun həyatı real təhlükədə idi.Onu yalnız saat 12-50-dən sonra buraxdılar.*

*Polis bölməsində saxlandığımız bütün müddətdə nə mənə, nə polis bölməsinə gətirilən digər şəxslərə tutulmanın əsasları bildirilməmiş, bu barədə heç bir protokol tərtib edilməmişdir. Bizə bölmədən çıxmağa imkan verilmirdi, hətta zəng etməyə icazə vermirdilər, nəyə görə tutulduğumuz barədə sualımıza isə bildirilirdi ki , rəisə hələ bizim buraxılmağımız haqqında göstəriş verilməmişdir.Yalnız 16.30 radələrində bir polis zabiti bizim olduğumuz otağa gələrək, bildirdi ki, biz izahat yazaq və orada göstərək ki, səs-küy saldığımıza görə, bizi polis bölməsinə gətirmişlər. Biz hamılıqla etiraz etdik və bildirdik ki, biz öz mənzilimizdə olmuş, heç bir səs-küy salmamışıq, əksinə, polis əməkdaşları və bizim evimizə aidiyyatı olmayan şəxslər bizim mənzil hüquqlarımızı pozub, zorla*

*mənzilimizə daxil olub, özümüzü də polisə gətirmişlər.Bundan sonra o, otaqdan çıxdı, bir neçə dəqiqədən sonra qayıtdı və bildirdi ki,"izahat verməkdən imtina etdiyinizi yazın". Hamı yazdı, mən isə bundan da imtina etdim. Azərbaycan dilində bilmədiyimi bilə-bilə mənimlə azərbaycan dilində danışır, tərcümə də etmirdilər. Bu vəziyyət axşam saat 19 qədər davam etdi, sonra məndən başqa hamını buraxdılar. Həmin vaxta qədər 10-15 dəqiqədən bir biz polis əməkdaşına yaxınlaşaraq, hansı əsasla tutulduğumuzu soruşmuş, buna cavab olaraq eşitmişik ki, 10-15 dəqiqəyə buraxılacayıq.*

*Məni isə yalnız növbəti gün səhər saat 8 radələrində buraxdılar.*

*Mən öz evimizin yanına gəldim, öz mənzilimə qalxdım, mənzil darmadağın edilmişdi, hətta unitazla əl-üzyuyanı aparmışdılar.Bundan sonra aşağı düşdüm, binanın ətrafında İcra Hakimiyyətinin nümayəndəsi gəzişirdi. O,mənə əşyalarımın saxlandığı yeri bildirdi. Deyilən yerə getdim. Gördüm ki, mənim əşyalarım necə gəldi, ora atılmışdır. Hələ indiyədək bilmirəm ki, hansı əşyam salamatdır, hansı var, hansı yoxdur.*

*Beləliklə, rayon polis idarəsinin polis bölməsində mən heç bir əsas olmadan 22 saat saxlanıldım.*

*Mənim tutulmağım nə milli qanunvericiliyə, nə də ki, beynəlaxalq hüquqa uyğun olmamışdır.* ***Faktiki olaraq, mən 22 saat ona görə tutulub saxlanılmışam ki, mənim qanuni mülkiyyətimdə olan mənzil boşaldılsın, əşyalarım maneəsiz olaraq oradan çıxarılsın. Belə davranış isə hətta ən qeyri-sivil dövlətlər üçün də səciyyəvi deyildir.*** *Bununla mənim Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsi ilə təmin edilən azadlıq hüququm kobud surətdə pozulmuşdur".*

10. ***Şikayətin baxılması:*** Ərizəçinin şikayətinə baxılanda, rayon polis bölməsindən məhkəməyə Sorokinanın tutulmasınıı əsaslandıran sübutlar kimi bəzi sənədlərin surətləri daxil oldu. Həmin sənədlərdən birində – AA 940 saylı 02 noyabr 2010-cu il tarixli protokolunda yazılmışdır ki, Sorokina İrina Alekseyevna qonşusu ilə birlikdə B küçəsindəki mənzilinin yerləşdiyi evin qarşısında piket keçirmiş, bununla da Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 298-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta törətmişdir. U.Qasımov tərəfindən tərtib olunmuş protokolun arxa hissəsində «İş üzrə qəbul edilmiş qərar» sözlərinin qarşısında yazılmışdır: «vət. Sorokinaya İXM-nin 298-ci mad. görə xəbərdarlıq edilsin». (Ərizəçi həmin qərardan da ayrıca şikayət vermişdir.)

Protokola əlavə edilmiş Rayon Pİ-nin PPXB-nin polis nəfərləri H.Babayev, A.Həsənov və İ.Rəfiyev 02 noyabr 2010-cu il tarixli raportunda yazılmışdır ki, həmin gün saat 11.30 radələrində B küçəsində bir neçə şəxsin qanunsuz piket keçirdiklərinə görə idarənin rəhbərliyi tərəfindən göstəriş verilmişdir ki, həmin şəxsləri polis bölməsinə aparıb növbətçi hissəyə təhvil versinlər və polis nəfərləri də həmin şəxsləri gətirib polis bölməsinin növbətçi hissəsinə təhvil vermişlər və orada piketçilərin şəxsiyyəti məlum olmuşdur. Raport «Xahiş edirik, bu şəxslər barəsində qanuni tədbir görülməsinə sərəncam verəsiniz» cümləsi ilə bitir.

11. ***1-ci instansiya Məhkəməsinin qərarı:*** 29 noyabr 2010-cu il tarixində rayon məhkəməsinin qərarı ilə Ərizəçinin qanunsuz tutulma barədə verdiyi şikayət təmin edilməmişdir.

*12.* ***Apellyasiya şikayəti****:* Ərizəçi həmin qərardan apellyasiya şikayəti vermişdir. Apellyasiya şikayətində əlavə olaraq həm də göstərilmişdir ki, məhkəmə iclasında nümayiş etdirilən mobil telefon vasitəsi ilə çəkilmiş videoyazılarla göstərilən faktlar bütünlüklə sübuta yetirilmişdir, yəni yazıdan aşkar görünür ki, polis əməkdaşları və onları müşayiət edən şəxslər qeyri-insani və ləyaqəti alçaldıcı rəftara yol verərək, ərizəçinin mənzilinin qapısını lom vasitəsilə ilə sındırıb içəri daxil olmuş və dərhal, Ərizəçinin etirazlarına məhəl qoymadan, onun əmlakını yığışdıraraq aparmağa başlamışlar. Bundan başqa "basqınçılar" təcili yardımı evə buraxmamış, onu polis bölməsinə apardıqdan sonra orada tibbi yardım göstərilməsinə imkan verməmişlər, buna baxmayaraq 22 saat heç kimə zəng etməyə imkan verməyərək və tutulma səbəblərini

bildirməyərək qanunsuz saxlamışlar; bundan başqa Sorokinanın rus millətindən olduğuna görə onunla saxlanılan digər şəxslərlə müqaisədə kobud rəftar edilmiş və digərlərinə nisbətən 13 saat gec evə buraxımışdır. Baş verənlər həm də 3 şahidin ifadələri ilə təsdiq edilmişdir. Digər qonşular şikayət verməmişlər, çünki ədalət mühakiməsinə inamları yoxdur.

13.***Apellyasiya məhkəməsinin qərarı:***Bakı Apellyasiya Məhkəməsinin 20 dekabr 2010-cu il tarixli Qərarı ilə Ərizəçinin qanunsuz tutmaya dair işi ilə bağlı verdiyi apellyasiya şikayəti təmin edilməmişdir. Həmin qərar Ərizəçiyə 24 dekabr 2010-cu il tarixli müşayiət məktubu ilə göndərilmişdir.

***Suallar və tapşırıqlar:***

1. ***Əgər Siz Ərizəçi (onun nümayəndəsi) olsaydınız Konvensiyanın hansı maddələrinin pozulması barədə şikayət verərdiniz?Hər bir maddə üçün sübutlar gətirin***
2. ***Bu iş üzrə Konvensiyanın 14-cü maddəsinin pozuntusu baş vermişdimi? Əgər bu barədə Avropa Məhkəməsinə şikayət verilərsə Sizcə Məhkəmə nə cür qərar verər?***

*Hazırladı: Natəvan Rüstəmova*